**AZƏRBAYCAN RESPUBLİKASININ TARİF (QİYMƏT) ŞURASI**

**Q Ə R A R № 04**

**Bakı şəhəri, 24 noyabr 2011-ci il**

**"Azəristiliktəchizat" ASC tərəfindən göstərilən xidmətlərin tariflərinin tənzimlənməsi barədə**

Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 26 dekabr 2005-ci il tarixli 341 nömrəli Fərmanına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 30 dekabr 2005-ci il tarixli 247 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət tənzimlənməsi tətbiq olunan tariflərin (qiymətlərin) formalaşması və tətbiqi üzərində dövlət nəzarətinin təmin edilməsi Qaydaları"na, "Azəristiliktəchizat" Açıq Səhmdar Cəmiyyətinin müraciətinə və Tarif (qiymət) Şurasının 24 noyabr 2011-ci il tarixli iclasının protokoluna əsasən **QƏRARA ALIR**:

1. "Azəristiliktəchizat" ASC tərəfindən göstərilən xidmətlərin tarifləri aşağıdakı kimi təsdiq edilsin:

| Sıra №-si | Xidmətlərin növü | İstehlakçı qrupları | Ölçü vahidi | Tariflər (ƏDV ilə, manatla) |
|---|---|---|---|---|
| I | Mərkəzi isitmə | 1. Əhali üzrə | 1 m2 yaşayış sahəsi | 0,15 (aylıq) |
| | | 2. Qeyri-əhali üzrə | 1 m3 isidilən həcm | 0,25 (aylıq) |
| | | | 1 Qkal | 30,0 |
| II | İsti su | 1. Əhali üzrə | 1 m3 | 0,4 |
| | | | 1 Qkal | 8,0 |
| | | 2. Qeyri-əhali üzrə | 1 m3 | 1,5 |
| | | | 1 Qkal | 30,0 |

2. Sayğac quraşdırılmamış mənzillərdə bir nəfər üçün aylıq isti su istehlakı norması 2 kub metr həcmində müəyyən edilsin.
3. İstilik mövsümünün başlanması və qurtarması tarixləri xidmət göstərən subyekt tərəfindən Şuraya əvvəlcədən bildirilməklə, sayğac quraşdırılmadığı hallarda istehlakçılarla hesablaşmalar həmin tarixlərə uyğun olaraq istilik təmin edilən faktiki günlərin sayına görə aparılsın.
4. Mülki qanunvericiliyə uyğun olaraq xidmət göstərən subyektlə istehlakçılar arasında xidmətlərin müqavilə əsasında həyata keçirilməsi təmin edilsin.
5. Bu qərarın subyektin təsərrüfat fəaliyyətinə təsirinin qiymətləndirilməsi, mərkəzi isitmə və isti su xidmətləri sahəsində səmərəli fəaliyyətin təşkili məqsədilə Şuranın müəyyən etdiyi iclaslarda xidmət göstərən subyekt tərəfindən hesabat təqdim edilsin.
6. Bu qərar 01 dekabr 2011-ci il tarixindən qüvvəyə minir və müvafiq xidmətlərə dair əvvəllər qəbul olunmuş tariflər qüvvədən düşmüş hesab edilsin.

**Azərbaycan Respublikası**
**Tarif (qiymət) Şurasının sədri** **Şahin Mustafayev**